# Çıxış




ONLAR DAĞLARA VƏ QIRMIZI DƏNİZİN SAHİLİNƏ YAXINLAŞDILAR. BURADA ONLAR DƏNİZİ NECƏ KEÇƏCƏKLƏRİ BARƏDƏ DANIŞMAQ ÜÇÜN DÜŞƏRGƏ SALDILAR.


FİRON OĞLU ÜÇÜN YAS TUTANDAN SONRA ONU QƏZƏB BOĞDU. O, NƏ ÜÇÜN QULLARIN GETMƏLƏRİNƏ İZİN VERDİ?
TEZ DÖYÜŞ ARABALARINI HAZIRLAYIN. İSRAİL ÖVLADLARINI TƏQİB EDİN. ONLARI YA GERİ GƏTİRİN, YA DA HAMISINI QIRIN.
ƏLAHƏZRƏT, ƏMR ETDİYİN KİMİ OLACAQ.

ÇIXIŞ 14:5-7


BAXIN, MİSİR ORDUSU GƏLİR! BU SƏHRADA ÖLƏCƏ-YİK!
MUSA BİZİ ÖLDÜRMƏK ÜÇÜN BURAYA GƏTİRDİ. SƏHRADA ÖLMƏKDƏN MİSİRLİLƏRƏ QULLUQ ETMƏK BİZİM ÜÇÜN YAXŞIDIR.
MİSİRLİLƏR İSRAİL ÖVLADLARI-NIN KÖMƏKSİZLİYİNİ GÖRƏNDƏ MUSANIN MİSİRƏ GƏTİRDİYİ BƏLALARI XATIRLADILAR VƏ ÖLDÜRMƏYƏ HAZIR İDİLƏR.
BİR TƏRƏFDƏN DAĞLAR, BİR TƏRƏFDƏN İSƏ DƏNİZDİR. ÇIXILMAZ VƏZİYYƏTDƏ-YİK.
ALLAH BİZİ DAHA XİLAS EDƏ BİLMƏZ.
DURDUĞUNUZ YERDƏ DAYANIN. ALLAH BİZİ MÖCÜZƏ İLƏ XİLAS EDƏCƏK.
ALLAH BİR DAHA FİRONUN ÜRƏYİNİ İNADKARLAŞDIRDI. BUNDAN SONRA SİZ DAHA MİSİR ORDUSUNU GÖRMƏ-YƏCƏKSİNİZ.



ÇIXIŞ 14:5-13


ALTI YÜZ SEÇMƏ DÖYÜŞ ARABASINDAN, ELƏCƏ DƏ, BİR ÇOX DİGƏR ARABALARINDAN İBARƏT QOŞUN MİSİRƏ GƏLƏN BƏLALARIN QİSASINI ALMAQ ÜÇÜN İSRAİL ÖVLADLARINI QIRMAĞA GETDİLƏR.


MƏGƏR MİSİRDƏ QƏBİRİSTANLIQ YOXDUR Kİ, SƏN BİZİ SƏHRADA ÖLMƏYƏ APARDIN?
MİSİRDƏ SƏNƏ "BİZDƏN ƏL ÇƏK, MİSİRLİLƏRƏ QULLUQ EDƏK!" DEMİRDİKMİ?
SƏHRADA ÖLMƏKDƏN MİSİRLİLƏRƏ QULLUQ ETMƏK BİZİM ÜÇÜN YAXŞIDIR.
DURUN, RƏBBİN BU GÜN SİZİ NECƏ XİLAS EDƏCƏYİNƏ BAXIN.

ÇIXIŞ 14: 6-14









ÇIXIŞ 14:15, 19-20







ÇIXIŞ 14: 16-20


FİRONU VƏ ONUN QOŞUNUNU MƏĞLUB ETDİYİM ZAMAN MİSİR-LİLƏR BİLƏCƏKLƏR Kİ, RƏBB MƏNƏM.








ÇIXIŞ 14:22-23







ÇIXIŞ 14:27-28






ÇIXIŞ 14:21-22, 30, 16:2-3, 16:7-8




ÇIXIŞ 16:14-15, 17:2-4; ZƏBUR 78:24-25


ALLAH MUSAYA NƏ ETMƏK LAZIM OLDUĞUNU DEDİ.
GƏLİN VƏ ALLAHIN QÜDRƏTİNİ GÖRÜN. SİZ ONA İMAN ETMİRSİNİZ. SİZ NARAZISINIZ VƏ ŞİKAYƏT EDİRSİNİZ.
O, SİZƏ ÇÖRƏK VERDİ, İNDİ İSƏ ADİ QAYADAN SİZƏ SU VERİR.
ŞAQQQ!
FIŞŞŞ!



ÇIXIŞ 17:5-6


SU ÇAY KİMİ AXDI.
LAKİN ONLARIN PROBLEMI TƏKCƏ SU DEYİLDİ.


SƏHRAYA BAXIN!
AMALEQLİLƏR... MUSAYA XƏBƏR ÇATDIRIN!


ONLAR BİZİ MƏĞLUB EDƏ BİLƏCƏKLƏRİNİ FİKİRLƏŞİRLƏR.
YEŞUA, AN MƏHARƏTLİ KİŞİLƏRİ DÖYÜŞ ÜÇÜN HAZIRLA.
SABAH TƏPƏNİN BAŞINA ÇIXIB ALLAHIN MƏNƏ VERDİYİ ƏSANI ƏLİMDƏ TUTACAĞAM.

ÇIXIŞ 17:1-9






ÇIXIŞ 17:10-11




ÇIXIŞ 17:12-13


MUSA FİRONLA ÇƏKİŞMƏ ZAMANI ARVADINI İKİ OĞLU İLƏ BİRLİKDƏ QAYINATASININ YANINDA QOYMUŞDU. İNDİ İSƏ ONLAR QAYITDILAR.
ATA!
NƏHAYƏT Kİ, AİLƏM YANIMDA-DIR.
SƏN MƏNƏ MİSİRİN SƏRVƏTİNDƏN BÖYÜK OLAN ŞEYİ GƏTİR-MİSƏN.
MUSA ARVADI İLƏ OĞULLARININ GƏLİŞİNİ BAYRAM EDƏRKƏN QAYINATASI İLƏ SÖHBƏTDƏ ALLAHIN Mİ-SİRDƏ GÖSTƏRDİYİ MÖCUZƏLƏR BARƏDƏ DANIŞIRDI.
İNDİ MƏN BİLİRƏM Kİ, ALLAH BÜTÜN İLA-HİLƏRDƏN BÖYÜKDÜR, ÇÜNKİ O, ÖZ XALQINA NİFRƏTLƏ YANAŞANLA-RA BUNLARI ETDİ.

ÇIXIŞ 18:1-11




ÇIXIŞ 18:13-23






ÇIXIŞ 18:24-27; 19:1-6,9


MİSİRDƏN ÇIXANDAN ÜÇ AY SONRA İSRAİL XALQI SİNA SƏHRASINA GƏLDİ.
BURADA İSRAİL ÖVLADLARI DAĞIN QARŞISINDA DÜŞƏRGƏ SALDILAR.
MUSA İSƏ DAĞA – ALLAHIN HÜZURUNA ÇIXDI. RƏBB ONU DAĞDAN ÇAĞIRIB DEDİ:
MİSİRLİLƏRƏ NƏLƏR ETDİYİMİ, SİZİ QARTAL QANADLARINDA DAŞIDIĞIM KİMİ YANIMA GƏTİRDİYİMİ SİZ ÖZÜNÜZ GÖRDÜNÜZ.
İNDİ İSƏ ƏGƏR SÖZÜMƏ DİQQƏTLƏ QULAQ ASIB ƏHDİMƏ RİAYƏT ETSƏNİZ, SİZ BÜTÜN XALQLAR ARASINDAN MƏNƏ MƏXSUS XALQ OLACAQSINIZ.


MUSA GƏLİB RƏBBİN ONA ƏMR ETDİYİ HƏR KƏLMƏNİ XALQIN QARŞISINA QOYDU.
RƏBBİN BÜTÜN SÖYLƏDİKLƏRİNƏ ƏMƏL EDƏCƏYİK.
ONDA GEDİN, ÖZÜNÜZÜ TƏQDİS EDİN, PALTARLARINIZI YUYUN. ALLAHA İBADƏT ETMƏYƏ HAZIRLAŞIN. ÜÇ GÜN SONRA RƏBB SİNA DAĞI ÜZƏRİNƏ ENƏCƏK.
ALLAHIN ƏMR ETDİYİ KİMİ, ÜÇ GÜNDƏN SONRA BÜTÜN XALQ DAĞIN QARŞISINDA TOPLAŞDI VƏ ALLAHIN SÖZLƏRİNİ DİNLƏMƏYƏ HAZIR İDİ. DAĞDAN QATI BİR BULUD ENDİ VƏ SONRA...
MUSA, DAĞA ÇIX.
MƏN SİZİ MİSİR TORPAĞINDAN ÇIXARAN RƏBB ALLAHAM. BU DAĞIN ƏTRAFINA SƏHRƏD QOY.
XALQDAN BİR KİMSƏ BU SƏRHƏDİ KEÇSƏ, MƏHV OLACAQ. SƏNƏ ON ƏMRİ VERİRƏM. BUNLARI XALQA ÇATDIR.


MƏNDƏN BAŞQA ALLAH-LARIN OLMA-SIN.
ÖZÜN ÜÇÜN HEÇ BİR BÜT DÜZƏLTMƏ.
ALLAHIN RƏBBİN ADINI BOŞ YERƏ DİLİNƏ GƏTİR-MƏ.
ŞƏNBƏ GÜNÜ-NÜ TƏQDİS ET.
ATA-ANANA HÖRMƏT ET.
QƏTL ETMƏ.
ZİNA ETMƏ.
OĞURLUQ ETMƏ.
HEÇ KİMƏ QARŞI YALANDAN ŞAHİDLİK ETMƏ.
HEÇ KİMİN MALINA TAMAH SALMA.

ÇIXIŞ 20:3-17


ALLAH MUSAYA HƏMÇİNİN ƏDALƏT QANUNLARINI DA VERDİ.
BƏDƏN XƏSARƏTİ
ADAM VURUB ÖLDÜRƏN ŞƏXS ÖLDÜRÜLMƏLİDİR.
LAKİN O ŞƏXS ÖLDÜRMƏK QƏSDİNDƏ OLMASA VƏ ÖLÜM MƏNİM İZNİMLƏ OLSA, O ZAMAN ONUN ÜÇÜN BİR YER TƏYİN EDƏRƏM Kİ, ORAYA PƏNAH GƏTİR-SİN.
MLAK HAQQINDA HÖKMLƏR
BİR ADAM MAL-QARA YAXUD QOYUN-KEÇİ-DƏN OĞURLAYIB KƏSƏR, YAXUD SATARSA, QOY O ADAM MAL-QARA ƏVƏZİNƏ BEŞ HEYVAN QOYUN-KEÇİ ƏVƏZİNƏ DÖRD HEYVAN VERİB ZƏRƏRİ ÖDƏSİN.
ƏXLAQİ VƏ DİNİ HÖKMLƏR
QƏRİB ADAMA NƏ HAQSIZLIQ, NƏ DƏ ZÜLM EDİN, ÇÜNKİ SİZ ÖZÜNÜZ DƏ MİSİR ÖLKƏSİNDƏ QƏRİB İDİNİZ.
HEÇ BİR DUL QADINA VƏ YETİMƏ ƏZİYYƏT VERMƏYİN.
ÇOXLARI İLƏ BİRLƏŞƏRƏK ƏDALƏTİ TƏHRİF ETMƏYİN.
MÖHTAC OLAN ADAMIN MƏHKƏMƏ İŞİNDƏ ONA QARŞI ƏDALƏTİ


MÜQƏDDƏS ALLAH İNSANLARA İBADƏTƏ AİD DƏ QAYDALARI VERDİ.
XƏSTƏ DEYİL, YALNIZ SAĞLAM HEYVANI QURBAN GƏTİRİN.
ONUN ÜSTÜNƏ YAĞ VƏ ƏTİRLİ QATRAN TÖKÜN... RƏBBƏ XOŞ ƏTİR QALXSIN.
ALLAH İNSANLARA SAĞLAMLIQ QAYDALARINI DA VERDİ.
SƏKKİZİNCİ GÜN OĞLANLAR SÜNNƏT OLUN-MALIDIRLAR.
O, RƏBBƏ HƏSR OLUN-MALIDIR.
BAŞDA AĞARMIŞ SAÇLA-RIN ALTINDA DƏRİ SOYULANDA XRONİKİ DƏRİ XƏSTƏLİYİDİR.
ŞƏNBƏ GÜNLƏRİNİ QEYD EDİN, MÜQƏDDƏS-LİYƏ EHTİRAM GÖSTƏRİN. RƏBB MƏNƏM.
KASIBA XOR BAXMAYIN, ZƏNGİNİ ÜSTÜN TUTMAYIN. ƏDALƏTLƏ MÜHAKİMƏ EDİN.
MÜQƏDDƏS OLUN, ÇÜNKİ MƏN MÜQƏDDƏSƏM.


MUSA DAĞDAN ENDİ VƏ İSRAİLİN YETMİŞ AĞSAQQALINA ALLAHIN ƏMRLƏRİNİ ÇATDIRDI.
BUNLAR YAXŞI QAYDALARDIR.
YETMİŞ AĞSAQQAL MƏNİMLƏ DAĞA QAYIDACAQ. ALLAH MƏNİMLƏ GÖRÜŞDÜYÜ KİMİ, SİZİNLƏ DƏ GÖRÜŞƏCƏK. ÖZÜNÜZ DƏ GÖRƏCƏKSİNİZ. LAKİN ƏVVƏLCƏ ALLAHIN VERDİYİ ƏMRLƏRİ KİTABA YAZMALIYAM.
MUSA ALLAHIN SÖZLƏRİNİN HAMISINI DƏQİQ YAZDI. O, SƏHV ETMƏSİN DEYƏ ALLAHIN RUHU ONA KÖMƏK ETDİ.
MUSA YAZIB QURTARANDAN SONRA ADAMLARI TOPLADI VƏ ALLAHIN SÖZLƏRİNİ ONLARA OXUDU.
ALLAHIN BÜTÜN ƏMRLƏRİ YAXŞIDIR. BİZ BUNLARI YERİNƏ YETİRƏCƏYİK.
BELƏLİKLƏ, İSRAİL XALQI ALLAHLA ƏHD BAĞLADI. ALLAH ONLARA XEYIR-DUA, HƏYAT VERƏCƏK, DÜŞMƏNLƏRİNDƏN XİLAS EDƏCƏK, ONLAR İSƏ ALLAHIN BÜTÜN ƏMRLƏRİNƏ İTAƏT EDƏCƏKLƏR VƏ SALEHLİKDƏ YAŞAYACAQLAR.
ALLAH MUSAYA QURBAN GƏTİRMƏYİ VƏ QURBANIN QANINI XALQIN ÜZƏRİNƏ ÇİLƏMƏYİ ƏMR ETDİ.
HAMI, HƏTTA MUSA İLƏ HARUN DA ÖLÜMƏ LAYİQ GÜNAHKAR İDİLƏR. LAKİN ALLAH MƏRHƏMƏT GÖSTƏRDİ.
ÇIXIŞ YOLUNU VERDİ. QÜSURSUZ QUZUNU QURBAN GƏTİRMƏKLƏ, QANINI XALQININ ÜZƏRİNƏ ÇİLƏMƏKLƏ ALLAH ONLARIN GÜNAHLARINI ÖRTÜR, ONLARIN LAYİQ OLDUĞU ÖLÜMÜ GÖNDƏRMİR.
ÖLÜMƏ LAYİQ OLAN BİR ÇOX GÜNAHKARLARIN YERİNDƏ ÖLÜMƏ LAYİQ OLMAYAN QUZU ÖLDÜ.
İNDİ İSƏ, GÜNAHLARINIZ ÖRTÜLƏNDƏN SONRA SİZ, YETMİŞ AĞSAQQAL, MƏNİMLƏ DAĞA ÇIXACAQSINIZ VƏ ALLAHIN İZZƏTİNİ GÖRƏCƏKSİNİZ.


BELƏLİKLƏ, İSRAİLİN YETMİŞ AĞSAQQALI MUSANIN ARDINCA DAĞA QALXDILAR.
QƏFLƏTƏN QARŞIDA ALLAHIN TAXTINI GÖRDÜLƏR.
ALLAHIN IZZƏTİ!
YETMİŞ AĞSAQQAL MUSANIN DAĞIN BAŞINA ÇIXDIĞINI VƏ ALLAHIN IZZƏTLİ NURUNDA YOX OLDUĞUNU GÖRDÜLƏR.
GÖZƏLLİYƏ BAX!
İZZƏTƏ BAX!
MUSA KİMİ ALLAH İLƏ ÜZ-ÜZƏ DANIŞAN BAŞQA BİRİSİ YOXDUR.






ÇIXIŞ 20:4; 25:8-9, 28:1-3, 32:1-4


BUDUR SİZİ MİSİR TORPAĞINDAN ÇIXARAN ALLAHLARINIZ! SABAH ÇOXLU QURBAN GƏTİRƏCƏYİK VƏ BÖYÜK BAYRAM OLACAQ.
HARUN, BU BÜTÜN ALLAH OLMADIĞINI BİLİR, LAKİN ADAMLARDAN QORXUR.
ALLAH ADAMLARA BÜT DÜZƏLTMƏMƏYİ VƏ BÜTƏ SİTAYIŞ ETMƏMƏYİ ƏMR ETMİŞDİR. LAKİN ONLAR İSTƏDİKLƏRİNİ EDİRDİLƏR.
XALQ DANA BÜTÜNƏ QURBANLAR GƏTİRDİ, YEYİB-İÇDİ, SONRA İSƏ QALXIB OYNAŞDI. ALLAH ONLARI MƏHV ETMƏYƏ HAZIR İDİ.
ALLAH MUSAYA DEDİ: "TEZ OL, DÜŞ AŞAĞI. XALQ ÖZ ƏXLAQINI POZDU. ONLAR BÜTƏ SƏCDƏ QILDI-LAR. ONLARIN HAMISINI YOX ETMƏLİYƏM. ONLARIN ÜRƏKLƏRİ DAŞDIR, SALEHLİKDƏ YAŞAMIRLAR.

ÇIXIŞ 32:5-10






ÇIXIŞ 20:3-4; 32:15-20


RƏBBİN TƏRƏFİNDƏ OLANLAR, MƏNİM YANIMA GƏLİN! MİSİRİN İLAHİLƏRİNƏ SİTAYİŞ EDƏNLƏR YERLƏRİNDƏ QALSINLAR.
BİZ İBRAHİMİN, İSHAQIN VƏ YAQUBUN ALLAHININ ARDINCA GEDƏCƏYİK.
DƏNİZİ İKİ YERƏ BÖLƏN ALLAHIN ARDINCA GEDƏCƏYƏM.
GÜNAHIN CƏZASI ÖLÜMDÜR. ALLAH DEYİR Kİ, ONLAR ÖLMƏLİDİRLƏR. İNDİ İSƏ QILINCINIZI GÖTÜRÜN VƏ BÜTƏ SİTAYİŞ EDƏNLƏRİ ÖLDÜRÜN.
HƏMİN GÜN 3000 BÜTPƏRƏST VƏ ZİNAKAR ÖLDÜRÜLDÜ.
ÖL!
YOOX!
MƏRHƏMƏT ET!


MUSA DAĞA QALXDI VƏ ALLAH YENƏ DAŞ LÖVHƏLƏRİN ÜZƏRİNDƏ ƏMRLƏRİNİ YAZDI. MUSA QAYIDANDA ADAMLARA BU ƏMRLƏRİ GÖSTƏRDİ VƏ ONLAR İTAƏT ETMƏYƏ RAZILAŞDILAR.
GÜNAH EDƏNDƏ O, HAMINIZI MƏHV ETMƏK İSTƏDİ, MƏN İSƏ SİZİN ÜÇÜN DUA ETDİM. O, SİZİ GÜNAHDAN TƏMİZLƏYƏCƏK. ALLAH HƏQİQƏTƏN, MƏRHƏMƏTLİ VƏ BAĞIŞLAYANDIR.
ALLAH HÜZUR ÇADIRINI TİKMƏK ÜÇÜN GÖSTƏRİŞLƏR VERDİ. BİZ BUNU DÜZGÜN TİKSƏK O, BİZİMLƏ ORADA GÖRÜŞƏCƏK. BİZ HAMIMIZ GÜNAHKARIQ. ALLAH ONA YAXINLAŞMAĞIMIZ ÜÇÜN YOL TƏMİN ETDİ.
LEVİLİLƏR HƏR GÜN QURBANLAR TƏQDİM EDƏCƏKLƏR. İLDƏ BİR DƏFƏ ƏHD SANDIĞININ ÜSTÜNƏ QAN SƏPİLƏCƏK. ƏHD SANDIĞINDA QANI GÖRƏN ALLAH MİSİRDƏ ETDİYİ KİMİ, GÜNAHLARIMIZI TƏMİZLƏYƏCƏK VƏ BİZ ÖLMƏYƏCƏYİK. ALLAHIN BAĞIŞLANMA YOLU BELƏDİR.
HÜZUR ÇADIRINI DÜZƏLTDİLƏR. KAHİNLƏR HƏR GÜN QURBANLAR TƏQDİM ETMƏYƏ BAŞLADILAR. ALLAH HEYVANLARIN QANINI TƏQDİM EDƏNLƏRİN İMANINI GÖRƏNDƏ ONLARI GÜNAHLARDAN TƏMİZLƏYİRDİ.


ALLAHIN ETDİKLƏRİNƏ BAXMAYARAQ QISA MÜDDƏT SONRA CAMAAT ŞİKAYƏT ETMƏYƏ BAŞLADI.
ALLAHIN BİZİMLƏ OLMASI BİZƏ BAHA BAŞA GƏLİR.
BİLMİRİK NƏ VAXT SUYUMUZ OLACAQ. BU SƏHRADA YIXILIB ÖLƏCƏYİK.
EEEH!
MUSANI ÇAĞIRIN!
BU SƏH-RADAN HEÇ VAXT...
MUSA, GƏL BİZİ XİLAS ET!
MUSA RƏBBİ ÇAĞIRANDA RƏBBİN QƏZƏBİ ALOVLANDI. RƏBBİN ODU ONLARIN ARA-SINDA YANDI VƏ DÜŞƏRGƏ ƏTRAFINDA-KILARIN BƏZİLƏRİNİ MƏHV ETDİ.
O YERİN ADI TAVERA (YANĞIN) QOYULDU.






SAYLAR 11:4-10




SAYLAR 11:11-17






SAYLAR 11:18-23




SAYLAR 11:24-30


RƏBB DƏNİZDƏN BİLDİRÇİN GƏTİRƏN BİR KÜLƏK ƏSDİRDİ.
KÜLƏK BİLDİRÇİNLƏRİ DÜŞƏRGƏNİN HƏR İSTİQAMƏTİNDƏN BİR GÜNLÜK YOL QƏDƏR UZAQLIĞA, YERİN ÜZƏRİNDƏN İKİ QULAC QƏDƏR HÜNDÜRLÜYƏ SALDI.
HƏR KƏS ƏN AZI 3500 LİTRLİK QABI DOLDURDU.
ƏT! NƏHAYƏT Kİ!
ÇOXDANDI ƏT BİŞİRMƏK İSTƏYİRDİM!
AMMA ƏTİ HƏLƏ DİŞLƏRİ ARASINDA ÇEYNƏMƏMİŞDƏN ƏVVƏL XALQA QARŞI RƏBBİN QƏZƏBİ ALOVLANDI, RƏBB BİR ÇOXLARINI ŞİDDƏTLİ VƏBA İLƏ ÖLDÜRDÜ.
O YERİN ADI "HƏSRƏT QƏBİRLƏRİ" QOYULDU, ÇÜNKİ ƏTİ VƏ MİSİRİ İSTƏYƏNLƏR ORADA BASDIRILDI.
CAMAAT BURADAN XASEROTA KÖÇÜB ORADA QALDI.


ARVADI ÖLƏNDƏN SONRA MUSA KUŞLU QADIN İLƏ EVLƏNDİ.
BUNA BAX, QARDAŞIMIZ KUŞLU QADIN İLƏ EVLƏNDİ!
BAŞQA BİR MƏSƏLƏ DƏ VAR...
RƏBB YALNIZ MUSA VASİTƏSİLƏMİ DANIŞDI?
BİZİM VASİTƏMİZLƏ DƏ DANIŞMADIMI?
FİKİR VERİN Kİ, MUSA YER ÜZÜNDƏ YAŞAYAN BÜTÜN ADAMLARDAN DAHA İTAƏTKAR BİR İNSAN İDİ.
RƏBB BUNU EŞİTDİ VƏ ÜÇÜNÜ DƏ HÜZUR ÇADIRINA ÇAĞIRDI.
HARUN VƏ MƏRYƏM, ÖNƏ ÇIXIN. İNDİ SÖZLƏRİMİ DİNLƏYİN...
ƏGƏR ARANIZDA BİR PEYĞƏMBƏR VARSA, MƏN RƏBB GÖRÜNTÜDƏ ONA ÖZÜMÜ AŞKAR EDƏRƏM, YUXUDA ONUNLA DANIŞARAM.
QULUM MUSA İSƏ ELƏ DEYİL, O, BÜTÜN EVİMDƏ SADIQDIR.
MƏN ONUNLA MÜƏMMALARLA DEYİL, ÜZBƏÜZ AÇIQ DANIŞARAM VƏ O, RƏBBİN SURƏTİNİ GÖRÜR.
NƏ ÜÇÜN QORXMAYARAQ QULUM MUSADAN GİLEYLƏNDİNİZ?

SAYLAR 12:1-8






SAYLAR 12:9-16


ALLAH MUSAYA DEDİ Kİ, GEDİB KƏNAN TORPAĞINA BAXMAĞA HƏR QƏBİLƏSİNDƏN BİR RƏHBƏR GÖNDƏRSİN.
ONLARIN ARASINDA YEŞUA DA VAR İDİ.
BU YOLDAN NEGEVƏ GEDİN VƏ DAĞLIQ YERƏ ÇIXIN.
ÖLKƏNİN NECƏ OLDUĞUNU GÖRÜN. ORADA YAŞAYAN XALQ GÜCLÜMÜ, ZƏİFMİ,
AZMI, ÇOXMU? ÖLKƏNİN MEYVƏSİNDƏN GƏTİRİN.
BELƏ ÜZÜM HƏLƏ GÖRMƏMİŞDİK!
QIRX GÜNDƏN SONRA ÖLKƏNİ NƏZƏRDƏN KEÇİRİB QAYITDILAR.
BU ON İKİ NƏFƏR MUSANIN VƏ BÜTÜN İSRAİL CƏMİYYƏTİNİN YANINA GƏLƏRƏK GÖRDÜKLƏRİ BARƏDƏ DANIŞDILAR.


HƏQİQƏTƏN DƏ, ORADA SÜD VƏ BAL AXIR. BUDUR O TORPAĞIN MEYVƏLƏRİ!
LAKİN ORADA YAŞAYAN XALQ ÇOX GÜCLÜDÜR.
ŞƏHƏRLƏR İSTEHKAMLI VƏ ÇOX BÖYÜKDÜR. HƏTTA ORADA ANAQLILARI GÖRDÜK.
NEGEV MƏNTƏQƏSİNDƏ AMALEQLİLƏR, DAĞLIQDA XETLİLƏR, YEVUSLULAR VƏ EMORLULAR, DƏNİZ KƏNARINDA VƏ İORDAN ÇAYI SAHİLİNDƏ İSƏ KƏNANLILAR YAŞAYIRLAR.
GEDİB ORANI ƏLƏ KEÇİRƏK. ÇÜNKİ BİZ MÜTLƏQ ONLARIN ÖHDƏSİNDƏN GƏLƏRİK.
O XALQA HÜCUM EDƏ BİLMƏRİK, ÇÜNKİ ONLAR BİZDƏN GÜCLÜDÜRLƏR.
ORADA GÖRDÜYÜMÜZ HƏR KƏS UCABOYLUDUR.
O NƏHƏNG ADAMLARIN NƏSLİNDƏN OLAN ANAQLILARIN YANINDA ÖZÜMÜZÜ ÇƏYİRTKƏ BOYDA HİSS ETDİK!




SAYLAR 14:1-10


NƏ VAXTADƏK BU XALQ MƏNƏ HÖRMƏTSİZLİK EDƏCƏK? ARALARINDA ETDİYİM ƏLAMƏTLƏRİ GÖRƏ-GÖRƏ NƏ VAXTA QƏDƏR MƏNƏ İMAN ETMƏYƏCƏKLƏR?
ONLARI MƏHV EDƏCƏYƏM. ONLARDAN ÇOX BÖYÜK VƏ GÜCLÜ BİR MİLLƏTİ SƏNDƏN TÖRƏDƏCƏYƏM.
MİSİRLİLƏR BUNU EŞİDƏCƏKLƏR!
ƏGƏR BU XALQI ÖLDÜRSƏN, BAŞQA MİLLƏTLƏR DEYƏCƏKLƏR: “RƏBB VƏD ETDİYİ ÖLKƏYƏ BU XALQI APARA BİLMƏDİ”.
RƏBB HƏDSİZ SƏBİRLİ, BOL MƏHƏBBƏTLİ, CƏZANI VƏ QANUNSUZLUĞU BAĞIŞLAYANDIR.
MİSİRDƏN ÇIXDIQLARI GÜNDƏN BU GÜNƏ KİMİ BU XALQI NECƏ BAĞIŞLAMISANSA, ONLARIN GÜNAHINI BÖYÜK MƏHƏBBƏTİNƏ GÖRƏ BAĞIŞLA.
SƏNİN RİCANA GÖRƏ BAĞIŞLADIM.
AMMA MƏNƏ HÖRMƏTSİZLİK EDƏN BU ADAMLARIN HEÇ BİRİ VƏD ETDİYİM TORPAĞI GÖRMƏYƏCƏK.
ANCAQ KALEV BÜTÜN QƏLBİ İLƏ ARDIMCA GETDİ. ONUN NƏSLİ ORANI İRS OLARAQ ALACAQ.
ONA GÖRƏ SABAH QAYIDIN VƏ QIRMIZI DƏNİZİN YOLU İLƏ SƏHRAYA GEDİN.


ONLARA DE Kİ, RƏBB DEYİR: "VARLIĞIMA AND OLSUN Kİ, MƏNƏ QARŞI DEDİKLƏRİNİZİN EYNİSİNİ SİZƏ EDƏCƏYƏM.
MEYİTLƏRİNİZ BU SƏHRAYA SƏRİLƏCƏK. MƏNƏ DEYİNƏN İYİRMİ VƏ ONDAN YUXARI YAŞDA OLUB SİYAHIYA ALINANLARIN HAMISI SƏHRADA ÖLƏCƏK.
KALEV VƏ YEŞUA-DAN BAŞQA HEÇ KİM VƏD ETDİYİM TORPAĞA GİRMƏYƏCƏK.
LAKİN 'ƏSİR OLACAQLAR' DEDİYİNİZ UŞAQLARINIZI ORAYA APARACAĞAM VƏ SİZİN RƏDD ETDİYİNİZ ÖLKƏNİ ONLAR TANIYACAQLAR.
MEYİTLƏRİNİZ BU SƏHRAYA SƏRİLƏCƏK. ÖVLADLARINIZ QIRX İL SƏHRADA ÇOBANLIQ EDƏCƏKLƏR. ÖLKƏNİ NƏZƏRDƏN KEÇİRDİYİNİZ GÜNLƏRİN SAYINA GÖRƏ QIRX GÜN, HƏR GÜN ÜÇÜN BİR İL OLMAQLA,
QIRX İL GÜNAHLARINIZIN CƏZASINI ÇƏKƏCƏKSİNİZ VƏ SİZDƏN ÜZ DÖNDƏRDİYİMİ BİLƏCƏKSİNİZ.
HƏQİQƏTƏN, MƏNƏ QARŞI BİRLƏŞƏN BU PİS İCMAYA BELƏ DƏ EDƏCƏYƏM. BU SƏHRADA ÖLÜB TƏLƏF OLACAQLAR.






SAYLAR 14:36-45


QORAH VƏ 250 NƏFƏR İCMA RƏHBƏRİ MUSAYA QARŞI ÜSYAN QALDIRDILAR.
MUSA, BƏSDİR! FİKİRLƏŞİRSƏN TƏKCƏ SƏN ALLAHA YAXINSAN? BİZ DƏ SƏNİN KİMİ MÜQƏDDƏSİK. BÜTÜN İCMANIN HAMISI SƏNİN KİMİ MÜQƏDDƏSDİR VƏ RƏBB ONLARIN ARASINDADIR. NƏ ÜÇÜN SIZ ÖZÜNÜZÜ RƏBBİN CAMAATINDAN ÜSTÜN TUTURSUNUZ?
HƏ, MƏN DƏ SƏHRADA GƏZMƏKDƏN YORULMUŞAM. MƏNASIZ MƏSƏLƏLƏRƏ GÖRƏ ALLAH BİZİ ÖLDÜRÜR.
BU, MUSANIN TƏQSİRİDİR. O, XALQDAN ÇOX ŞEY TƏLƏB EDİR.
MUSA HÜZUR ÇADIRINA GEDİB ALLAHDAN MƏSLƏHƏT İSTƏDİ.
ALLAH DEDİ: "ÜZƏRİNİZƏ BÖYÜK MƏSULİYYƏT GÖTÜRÜRSÜNÜZ, EY LEVİ NƏSLİ! ALLAHIN TƏYİN ETMƏDİYİ ADAMLARI KAHİN TƏYİN EDİRSİNİZ".
SƏHƏR RƏBB KİMİN ONA MƏXSUS, KİMİN MÜQƏDDƏS VƏ KAHİN OLDUĞUNU GÖSTƏRƏCƏK.
RƏBBİN HÜZURUNA GƏLİN. BUXURDANLARIN İÇİNƏ KÖZƏRMİŞ KÖMÜR QOYUN.


NÖVBƏTİ GÜN.
KİM ÖZÜNÜ MÜQƏDDƏS SAYIR, KİM KAHİN OLACAQ VƏ ADAMLARA HAKİMLİK EDƏCƏK - YAXIN GƏLİN.
ALLAH BİZİMLƏ BURADA GÖRÜŞƏCƏK VƏ ÖZÜ SEÇƏCƏK. BİZ ONUN QÜDRƏTİNİ VƏ İZZƏTİNİ GÖRƏCƏYİK.
ŞƏR ADAMLARIN ƏTRAFINDAN ÇƏKİLİN! İNDİ ONLAR ÖLƏCƏKLƏR.
ONLARIN MƏSKƏNLƏRİNİN ƏTRAFINDAN UZAQLAŞIN. ONLARA AİD OLAN HEÇ BİR ŞEYƏ TOXUNMAYIN. YOXSA SİZ DƏ MƏHV OLARSINIZ.




SAYLAR 16:28-33


BU ADAMLARIN BUXURDANLARINDAN QURBANGAH ÜÇÜN ÖRTÜK OLARAQ LÖVHƏLƏR DÜZƏLDİN.
QURBANGAHIN ÖRTÜYÜNÜ GÖRƏNDƏ BU GÜNÜ XATIRLAYACAQSINIZ. BU ADAMLAR RƏBBİN ƏMRLƏRİNİ SAYMAYIB ÖZLƏRİNİ KAHİN EMTƏK İSTƏDİLƏR.
QOY BU, İSRAİL ÖVLADLARINA ƏLAMƏT OLSUN. ALLAH MUSANIN PEYĞƏMBƏR OLDUĞUNU AYDIN GÖSTƏRDİ. YALNIZ ALLAHIN TƏYİN ETDİYİ KƏSLƏR KAHİN OLA BİLƏR.


ALLAHIN İZZƏTİ HƏMİŞƏ HÜZUR ÇADIRININ ÜZƏRİNDƏ İDİ. QIRX İL ƏRZİNDƏ ADAMLAR KÖNÜLLÜ OLARAQ SƏHRADA MUSANIN ARDINCA GEDİRDİLƏR.
ALLAHIN IZZƏTİ BİZİMLƏDİR. O, BİZƏ GÖYDƏN ÇÖRƏK GÖNDƏRİR.
ALLAH ONLARA GÖYDƏN ÇÖRƏYİ, QAYADAN İSƏ SUYU VERMƏKDƏ DAVAM EDİRDİ. OD SÜTUNU GECƏ, BULUD SÜTUNU İSƏ ONLARI GÜNDÜZ ÖRTÜRDÜ. ONLAR DÜŞƏRGƏ SALIB ALLAHIN ƏMRLƏRİNİ YERİNƏ YETİRMƏYİ ÖYRƏNDİLƏR.